JAN-KRİSTOF

QRANJE

LEYLƏKLƏRİN UÇUŞU

Fransızcadan tərcümə:
Çimnaz Adıgözəl (Vəliyeva)

QANUN NƏŞRİYYATI

JEAN-CHRISTOPHE

GRANGÉ

LE VOL DES CIGOGNES

Leyləklərin qayıtma mövsümü yetişib, lakin quşlar yoxa çıxıblar. Öz ölkələrinə, doğma yuvalarına qayıtmayıblar.

Əsər isveçrəli ornitoloqun gənc tarixçi Lui Antioşu leyləklərin miqrasiyasını araşdırmaq üçün işə götürməsi ilə başlayır. Ornitoloqun sirli və qəfil ölümündən sonra Lui leyləklərin yoxa çıxmasının sirrini təkbaşına araşdırmalı olur və tezliklə özünü cinayətlərin girdabında tapır.

Əsərdə hadisələr sürətlə inkişaf edir, qəhrəman başını itirmir və müəmmalı, sirli hadisələr arasından öz yolunu tapmağa çalışır. Bu yol onu Bolqarıstan, İsrail, Mərkəzi Afrika Respublikası və Hindistana aparıb çıxarır.

"Leyləklərin uçuşu" təkcə itkin quşların deyil, həm də insanlığa dair ən ağır sualların axtarışına çevrilən ağır bir romandır.

Jan-Kristof triller və detektiv janrını xoşlayanların sevimli yazıçısıdır.

"Leyləklərin uçuşu" yazıçının ilk əsəridir və ekzotika qarışıq qanlı-qadalı ab-havası ilə oxucuların sevimli kitabına çevrilib.

Vircini Lüka həsr olunur

MÜNDƏRİCAT

BİRİNCİ HİSSƏ. Doğma Avropa..... 9

İKİNCİ HİSSƏ. Sofiya, müharibə dövrü 48

ÜÇÜNCÜ HİSSƏ. Leyləklər kibbutsu 152

DÖRDÜNCÜ HİSSƏ. Cəngəlliyin dərinliyində 257

BEŞİNCİ HİSSƏ. Cəhənnəm payızı..... 399

ALTINCI HİSSƏ. Kəlkətə, davamı və sonu 475

Epiloq 503

BİRİNCİ HİSSƏ

Doğma Avropa

1

Maks Böhmə söz vermişdim ki, səfərə çıxmazdan əvvəl ona baş çəkəcəyəm.

Həmin gün İsveçrənin fransızdilli bölgəsinin başının üstünü qasırğa almışdı. Səma şəffaf işıltıları ilə gözqamaşdıran qara və göyümtül ənginliklərini açırdı. İsti külək dörd bir tərəfi sovururdu. Kirayə götürdüyüm üstüaçıq maşınla Leman gölünün sahili boyunca irəliləyirdim. Yolu burulanda, sanki elektriklənmiş havada dumana qərq olan Montrö göründü. Göl tələtümlə dalğalanırdı. Turist mövsümünün qızğın çağına baxmayaraq, hotellər nəhslikdən xəbər verən sükuta dalmışdı. Mərkəzə yaxınlaşdıqca sürəti azaltdım və şəhərin ən hündür nöqtəsinə aparan dar küçələrə üz tutdum.

Maks Böhmün dağ evinə çatanda hava artıq qaralmağa başlamışdı. Saata baxdım: beş idi. Qapını döyüb gözlədim. Cavab gəlmədi. Bir də tıqqıldadıb qulaq verdim. İçəridən hənir gəlmirdi. Evin ətrafına dolandım:

işıq yanmırdı, pəncərələr bağlanmışdı. Qəribə idi. İlk görüşümüzdən bilirdim ki, Böhm dəqiqliyi ilə seçilən adamdır. Maşına qayıdıb gözləməyə qərar verdim. Göyün dərinlikləri boğuq uğultularla nərə çəkirdi. Maşının üstünü bağladım. Beşin yarısı idi, amma Böhm hələ də görünmürdü. Onda qoruğa baş çəkmək qərarına gəldim. Yəqin, ornitoloq quşları görməyə gedib.

Bül şəhərindən keçib İsveçrənin almandilli bölgəsinə çıxdım. Yağış hələ tökməmişdi, amma külək şiddətlənmişdi, maşının təkərləri altından tozanaq qalxırdı. Bir saat sonra Vessembax həndəvərinin çəpərlənmiş çəmənliklərinə çatdım. Mühərriki söndürdüm və əkin sahələrinin arası ilə qəfəslərə tərəf yollandım.

Dəmir barmaqlıqların arxasındakı leyləkləri gördüm. Narıncı dimdiklər, ağ-qara lələklər, iti baxışlar... Tələşlı idilər. Qanadlarını zərblə çırpır, dimdiklərini şaqqıldadırdılar. Yəqin, qasırğaya görə idi, amma köç instinktindən də ola bilərdi. O an Böhmün sözlərini xatırladım: "Leyləklər köçəri quşlardır. Köçün səbəbi nə hava şəraitində, nə də qida çatışmazlığındadır, bioloji saatları belə işləyir. Sadəcə, bir gün getmək vaxtının çatdığını hiss edir və uçub gedirlər". Avqustun sonları idi və leyləklər artıq o sirli çağırışın pişvazındaydılar. Bir az aralıdakı otlaqlarda küləkdə o tərəf-bu tərəfə çalxalanan başqa leyləklər də vardı. Onlar da pırıldayıb uçardılar, amma Böhm onları "axtalamışdı", yəni qanadlarını bir az yolub, tarazlıqlarını pozmuş, beləcə onları uçmaq qabiliyyətindən məhrum etmişdi. Görünür, bu "təbiət